AZƏRBAYCAN www.azerbaijan-news.az

# Fransa jurnalında istedadlı gənc rəssam Məryəm Ələkbərli haqqında məqalə dərc edilib

Həftəlik "France Dimanche" jurnalında istedadlı gənc rəssam Məryəm Ələkbərli haqqında məqalə dərc edilib.


France Dimanche

"Trisomique, Maryam est une peintre de génie!"

Məqalədə incəsənət tarixçisi xanım Janet Zvinjenberjer Məryəmin əl işlərindən ibarət sərgilərin artıq dünyanın bir çox ölkələrində təşkil olunduğunu qeyd edir, onun əsərlərinin məziyyətlərindən söhbət açır. O, azərbaycanlı gənc rəssamın öz daxili aləmini və hisslərinin dialoqunu rəsmlərin və rənglərin köməyi ilə ifadə etdiyini vurğulayır.

J.Zvinjenberjer Məryəmin müasir incəsənətə yaxşı bələd olduğunu qeyd edərək onun rəng seçimi və kompozisiya istedadına heyran qaldığını bildirir.

***Şəhla AĞALAROVA,***
***AZƏRTAC-ın xüsusi müxbiri***

*Paris*